BAKI XƏBƏR 14 25 NOYABR 2025 № 213 (5535)

**Elmi mühitdə insanların qiyməti təkcə yazdıqları məqalələrin sayı ilə ölçülmür. Bəzən bir insanın elmə gətirdiyi nəfəs, tədqiqat yolunda nümayiş etdirdiyi əzmkarlıq, həm də ətrafındakıları elmə bağlamaq bacarığı onun haqqında çox şey deyir. Professor Eldar Hüseynqulu oğlu Məmmədbəyli haqqında düşünəndə insanın ağlına məhz bu cür keyfiyyətlər gəlir. O, sanki ömrü boyu yalnız kimyanın deyil, həm də elmə sədaqətin, zəhmətin və məsuliyyətin kimyasını yaradıb.**

# Elmə həsr olunmuş ömrün portreti



*Əlövsət Allahverdiyev*
*Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti Hüquq fakültəsinin müəllimi*



**Eldar Məmmədbəyli**
**Professor**

Əczaçılıq təhsili ilə başlayan və Neft-kimya Prosesləri İnstitutunun laboratoriyalarından keçib SSRİ Elmlər Akademiyasının Element Üzvi Birləşmələr İnstitutuna qədər uzanan bu yol təkcə bir alim bioqrafiyası deyil, elmə həsr edilmiş bir ömrün xəritəsidir. Bu yolun hər pilləsində o, yeni bilik axtarışına çıxan bir tədqiqatçı kimi deyil, həm də özünü inkişaf etdirməkdən usanmayan bir şəxsiyyət kimi görünür. 1960-70-ci illərin çətin elmi mühitində, başqa respublikalarda təcrübə keçmək, özünü doğrultmaq alimdən həm iradə, həm də intellekt tələb edirdi. Eldar müəllim bu yolda təkcə uğur qazanmayıb, həm də Azərbaycan elmini beynəlxalq aləmə çıxaran alimlərdən biri kimi tanınıb.

Onun Rusiya Elmlər Akademiyasının institutları ilə yaratdığı çoxillik əməkdaşlıq elmi diplomatiyanın ən parlaq nümunələrindəndir. Bəzən institutlar arasında imzalanan müqavilələr formal xarakter daşıyır, lakin Eldar müəllimin kuratorluğu ilə həyata keçirilən birgə layihələrin nəticələrinə baxanda bu əməkdaşlığın məhz elmi məhsuldarlıq üzərində qurulduğunu görmək olur. Asimmetrik sintez, optiki aktivlik, mikrokapsullaşma kimi mürəkkəb istiqamətlərdə aparılan tədqiqatlar yalnız laboratoriya rəflərində qalmayıb, 30-dan çox ortaq məqalədə, yüzlərlə istinadda öz təsdiqini tapıb. Bu, elmi ideyanı tədqiqata, tədqiqatı nəticəyə, nəticəni isə elmi nüfuza çevirən bir insanın portretidir.

Eldar Məmmədbəylinin zəngin elmi irsi 630-dan artıq iş, onlarla patent, monoqrafiya və yüksək təsir əmsallı məqalələr onun elmə yanaşmasının təkcə məhsuldar deyil, həm də sistemli olduğunu göstərir. Mənim fikrimcə, onu daha dəyərli edən cəhət yetişdirdiyi insanlardır. Bir alimin ən böyük əsəri kitabı deyil, yetirməsidir. Eldar müəllimin rəhbərliyi altında müdafiə olunan səkkiz fəlsəfə doktoru və üç elmlər doktoru, hazırda isə dissertasiya yazan yeni nəsil gənc tədqiqatçılar onun elmin davamlılığına necə böyük məsuliyyətlə yanaşdığını göstərir. Onun təhsilə münasibəti də ayrıca bir mövzudur. Müxtəlif illərdə universitet audiforiyalarında keçdiyi dərslər, tələbələrin diplom işlərinə rəhbərliyi, dövlət komissiyalarındakı fəaliyyəti - bütün bunlar bir faktı təsdiqləyir: Eldar müəllim üçün elm yalnız özünə aid deyil, paylaşılmalı bir dəyərdir. Bu xüsusiyyət onu həm alimlər, həm tələbələr, həm də sadəcə elm adamları ilə işləyən insanlar arasında hörmətli şəxsiyyətə çevirib.

Eldar müəllimlə bağlı təəssürat yaratmaq üçün onun haqqında təkcə faktlar danışmır. Onun səsindəki sakitlik, məsələni izah edərkən göstərdiyi səbr, alimlərə xas ehtiyatlılıq və dəqiqlik, ən əsası isə işinə sevgisi - bütün bunlar onun xarakterində elə bir bütövlük yaradır ki, insan bu bütövlüyün içində elmə xidmət edən bir zərif işığa bənzər nəsə hiss edir. Bu işıq illərdir sönmür, əksinə, yeni nəsil tədqiqatçıların yolunu da aydınlaşdırır.

2025-ci ildə Rusiya Elmlər Akademiyasının ona Fəxri Fərman təqdim etməsi əslində tək bir alimə deyil, onun timsalında Azərbaycan elminə verilən dəyər kimi görünür. Bu təltif elmi əməkdaşlığın, qarşılıqlı hörmətin və Eldar müəllimin illərlə göstərdiyi misilsiz əməyin təsdiqidir.

Eldar müəllimi yaxından tanıdıqca onun nə qədər nəcib və böyük qəlbli insan olduğunu daha dərindən anlayırsan. O, elmi fəaliyyətində necə məsuliyyətli və səliqəli bir alimdirsə, gündəlik həyatında da bir o qədər qayğıkeş, mehriban və diqqətcil insandır. Eldar müəllim sözübütöv, insanlara dəyər verməyi bacaran, çevrəsinə hər zaman müsbət enerji yayan nadir şəxslərdəndir.

Onun ailəsinə olan səmimi münasibəti, ailə dəyərlərinə bağlılığı və gözəl ailə başçısı olması hamı üçün nümunədir. İşində necə prinsipial və tələbkardırsa, dostluqda da bir o qədər sadiq və etibarlıdır. Onu bir dəfə tanıyan hər kəs sanki uzun illərin tanışı kimi rahatlıq və yaxınlıq hiss edir. Eldar müəllimin həm alimliyi, həm insanlığı, həm də həyat tərzi bir bütöv harmoniya yaradır. O, el içində hörmət qazanmağı təkcə elmi nailiyyətləri ilə yox, həm də insanlığı ilə bacarmış nadir ziyalılardandır. Hər kəs üçün yol göstərən, ətrafına güvən verən, sözün hər mənasında el adamıdır. Eldar müəllimi tanımaq həm tərəf, həm də qürurverici bir duyğudur. Eldar Məmmədbəyli haqqında təəssürat bir cümlə ilə yekunlaşıla bilər: O, öz fəaliyyətində elmin məsuliyyətini daşıyan, elm adamının xarakterini qoruyan və gələcək nəsillərə bu dəyəri ötürən alimdir. Onun ömrü və işi bir daha sübut edir ki, elm adamı zamanın deyil, zaman elm adamının ardınca gedir. Sonda hörmətli Eldar müəllimə möhkəm can sağlığı, heç vaxt tükənməyən enerji və qarşıda onu gözləyən yeni elmi uğurlara doğru daim irəliləmək arzu edirəm.